# "Boraltan - azadlığın tələsi" təqdim edilib



"LİBRAFF" kitab evində Əməkdar jurnalist, yazıçı Yunis Orucovun "Boraltan - azadlığın tələsi" tarixi romanının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib, "Boraltan faciəsi"nin qurbanlarına həsr edilmiş videoçarx nümayiş olunub.

Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu (MİMTA) tərəfindən nəfis şəkildə nəşr olunan kitabın təqdimat mərasimində bildirilib ki, yeni əsər İkinci Dünya müharibəsi illərində qırmızı terrordan qaçaraq qardaş Türkiyəyə sığınan, lakin 1945-ci ildə Stalinin tələbi ilə CHP (Cümhuriyyət Xalq Partiyası) hökumətinin zorla SSRİ-yə təhvil verdiyi soydaşlarımızın məşəqqətli və nakam taleyindən bəhs edir.

Kitabın təqdimat mərasimində çıxış edən Yunis Orucov yeni əsərinin məziyyətlərindən və yaranma səbəblərindən danışıb: "200 illik tariximizə nəzər salanda görürük ki, bu tarix təkcə müharibələrlə və sülhdən ibarət deyil. Bu tarix qəlb yaraları ilə də zəngindir. 77 il öncə 146 azərbaycanlının qətlə yetirilməsi əslində türk insanına verilən göz dağı idi. Lakin üstündən uzun illər keçdi və biz o gözdağını Qarabağda düşmənə yaşatdıq".

Kitabın redaktoru, Əməkdar jurnalist Firuzə Nadir vurğulayıb ki, müəllifin yeni əsəri ona "Nargin - saralmış kədər"i xatırladıb: "Bilirsiniz nədən? Çünki burada da tarix var, tarixin acı gerçəkləri var, tarixin indi-indi üzünə gün doğan qaranlıq bucaqları var. Amansız siyasətin məhv etdiyi nakam talelər var, günahsız insanlar var".

F.Nadir qeyd edib ki, Yunis Orucov bu dəfə də tarixə üz tutub. Bütövlükdə müəllif qardaş Türkiyənin 100 illik tarixinə nəzər salır. Osmanlı imperiyası dağılandan sonra tarix səhnəsinə çıxan Türkiyə Cümhuriyyətinin keçdiyi çətin və mürəkkəb yolu əsər boyu müxtəlif hadisələrlə əlaqəli şəkildə təqdim edir.

Tədbirdə çıxış edən MİMTA Yayımlarının direktoru Əsəd Aslanoğlu, MİMTA Fondunun icraçı direktoru Pərviz Əmirov, Medianın İnkişafı Agentliyinin şöbə müdiri, yazıçı-publisist Natiq Məmmədli və başqaları çıxış edək yeni əsərlə bağlı fikirlərini bölüşüb və müəllifə uğurlar arzulayıblar.

Qeyd edilib ki, əsərin qəhrəmanları Azər və Araz adlı iki gənc azərbaycanlıdır. Onlar Boraltan faciəsinin real qəhrəmanları olan Ənvər Qazıyevin və Adəm Qardaşbəylinin prototipləridir.

Qeyd edək ki, bu, yazıçının tarixi janrda yazdığı ikinci romanıdır. Ötən il müəllifin böyük oxucu rəğbəti qazanan "Nargin - saralmış kədər" romanı işıq üzü görmüşdü. Hər iki roman MİMTA yayınlarının dəstəyi ilə çap olunub.

Sonda yazıçı "Boraltan - azadlığın tələsi" tarixi romanının imzası ilə oxuculara təqdim edib.

525- ci qəzet.- 2022- ci il.- 4 oktyabr.- S. 9.